AĞABABA İSGƏNDƏROV – 100

BAKI – 2026

Toplayanı, tərtib edəni
və qeydlərin müəllifi:
Araz Yaquboğlu
tədqiqatçı-jurnalist,
Azərbaycan Jurnalistlər Birliyinin və
Azərbaycan Aşıqlar Birliyinin üzvü

Məsləhətçi:
Fəzair Piriyev
QAİ Bərdə rayon nümayəndəliyinin rəhbəri,
Basarkeçər rayon Daşkənd icmasının sədri və
Basarkeçər rayon icmasının sədr müavini

Ağababa İsgəndərov – 100
Bakı, “İmza”, 2026, 48 səh.

Kitabda Göyçə mahalının Daşkənd kəndində doğulan, İkinci Dünya müharibəsi iştirakçısı Ağababa Qəmbərəli oğlu İsgəndərovun həyat və fəaliyyətindən bəhs edən müsahibələr, oçerklər, təbriklər, bioqrafik məlumatlar toplanmışdır.

Həmçinin, bu topluda Ağababa İsgəndərova məxsus olan şeirlərdən nümunələr verilmiş, nəsil şəcərəsi öz əksini tapmışdır.

ISBN 978-9952-33-421-8

© A.Yaquboğlu, 2026

İSGƏNDƏROV AĞABABA QƏMBƏRƏLİ OĞLU

Həyatı:

1926-cı ildə Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdur. Basarkeçər RHK-dan orduya çağırılmışdır (26.11.1944). 1166-cı atıcı alayın tərkibində döyüşlərdə iştirak etmişdir (10.04.1945–02.05.1945). Berlində sol ayağından yaralanmışdır (02.05.1945). 623 №li hospitalda müalicə olunmuşdur (05.1945–11.1945). Ordudan tərxis edilmişdir (26.11.1945).

1988-ci ildə Basarkeçər rayonunun Daşkənd kəndindən ailəsi ilə birlikdə qaçqın düşdükdən sonra Bakı şəhərində məskunlaşmışdır.

24 aprel 1992-ci ildə Azərbaycan Qaçqınlar Cəmiyyətinə üzv qəbul olunmuşdur (vəsiqə № 1568).

5 aprel 2018-ci ildən Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının üzvüdür (vəsiqə № 1280).

Dörd oğlu, altı qızı var.

Təltifləri:

"1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 20 illiyi" yubiley medalı (12.07.1967),

"Böyük Vətən müharibəsində Qələbənin 25 illiyi" nişanı (1970),

"1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 30 illiyi" yubiley medalı (26.07.1976),

"SSRİ Silahlı Qüvvələrinin 60 illiyi" yubiley medalı (21.03.1979),

II dərəcəli "Vətən Müharibəsi" ordeni (06.04.1985),

"1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 40 illiyi" yubiley medalı (12.04.1985),

"SSRİ Silahlı Qüvvələrinin 70 illiyi" yubiley medalı (09.05.1988),

"1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 50 illiyi" yubiley medalı (01.05.1995),

"1941–1945-ci illər müharibəsi Veteranı" nişanı (2000),

"1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 60 illiyi" yubiley medalı (27.04.2005),

"1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 65 illiyi" yubiley medalı (02.03.2010),

"1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 70 illiyi" yubiley medalı (02.02.2015),

"1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi" yubiley medalı (Rusiya, 06.05.2020),

"Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi (1945–2020)" yubiley medalı (Azərbaycan, 01.05.2020),

Böyük Vətən müharibəsi veteranı kimi 26 sentyabr 2000-ci ildə Bakı Şəhər İcra Hakimiyyətinin Nəqliyyat Departamenti tərəfindən şəhərdaxili nəqliyyatda (taksidən başqa) pulsuz gediş vəsiqəsi (AA № 0000011009) verilmişdir.

2016-cı ildə dövlət tərəfindən mənzil ilə təmin olunmuşdur.

2016-cı ildə dövlət tərəfindən minik avtomobili hədiyyə edilmişdir.

100 YAŞLI VETERANIN CƏBHƏ XATİRƏLƏRİ

Sinəsini 20-dən çox orden və medallar bəzəyən taleyinə qaçqınlıq yazılan 100 yaşlı Ağababa İsgəndərov haqqında televizya kanallarında dəfələrlə reportajlar, süjetlər göstərilmiş, rəşadətli döyüş yolu keçmiş müharibə veteranı haqqında mətbuatda maraqlı yazılar dərc olunmuş, ulu öndər Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Qələbə günündə yaddaqalan görüşlər olmuşdur.

Bu müdrik insanla görüşün təşkilinə görə Göyçə mahalının say-seçmə oğullarından olan, neçə-neçə maraqlı kitabların müəllifi, yazıçı Rüstəm Dastanoğluna minnətdaram. Bir axşamçağı Ağababa İsgəndərovun yaşadığı ünvana üz tutdum. Baxışından nur tökülən el ağsaqqalı həyətinin bir guşəsində nəticələri İsmayıl və Səma ilə şirin-şirin söhbət edirdi.

Sinəsini orden və medallar bəzəyən müharibə veteranı bizi mehribanlıqla qarşıladı və qeyd etdi ki, onun ən yaxın dostları jurnalistlərdir.

100 yaşlı veteranla üzbəüz əyləşib mətləbə keçdik. Qələbə günü ərəfəsində onunla söhbətə başladıq. O, asta-asta öz həyat yolundan söhbət açdı:

– Göyçə mahalı mənim Məkkəm, Mədinəm, dinim-imanım, qibləgahım idi. Gənclik illərimi “Abbas bəy”, “Hacı Qurban”, “Tərsə” dağlarında, şərbət sulu “Sona bulağı”, “Ocaq bulağı”, “Sarıbulaq”, “Buzlu bulaq” və digər yerlərdə keçirmişəm. O yerlərdə yaz, yay aylarında şair Al-

qayıt Xəlilov, Aşıq Hacı, Aşıq Nurəddin elə bir məclis keçirərdilər ki, göydə quşlar qanad saxlayardı.

Kəklikotu çayı içə-içə Ağababa kişi ilə söhbətimizi davam etdirdik. Qələbə günü ilə bağlı suallarımızı cavablandıraraq keçmiş günləri xatırladı. Xəyal onu gəncliyinin coşub-çağlayan anlarına apardı.

Ağababa İsgəndərov ulu Göyçədə – Basarkeçər rayonunun səfalı “Sarı yer” yaylağının yaxınlığında olan Daşkənd kəndində dünyaya göz açmışdı. Böyük Vətən müharibəsinin odlu-alovlu illərində bir ailədən beş nəfər – Dilqəm, Şuxu, Heydər, Müzəffər və sonbeşik Ağababa silaha sarılıb cəbhəyə, ölüm-dirim savaşına yollanmışdı. Ağababa İsgəndərov müharibəyə gedəndə 1943-cü ilin payızı idi. O, bir müddət Qoridə hərbi təlim keçdikdən sonra müharibənin ölümsaçan şəhərinə – Leninqrada yola düşdü.

Leninqrad şəhərində 6 ay artilleriya üzrə kursa cəlb olundu. Burada topçu kimi hərbi texnikanın sirlərinə yiyələndi. Belə çətin məqamda düşmənin irəliləməsinin qarşısı Ağababa İsgəndərov və çayın sahilində mövqe tutan 8 nəfər topçu yoldaşının igidliyi ilə alındı. Bu şücaətinə görə 176 mm-lik topu ustalıqla idarə edən Ağababa mükafatlandırıldı, “Cəbhə” qəzetində haqqında yazı dərc olundu.

Sovet qoşunları Berlin ətrafında almanlarla vuruşarkən göyçəli Ağababa misilsiz şücaət və qəhrəmanlıq göstərdi. Dəfələrlə ölümlə üz-üzə dayandı. O, həmin çətin anları belə xatırlayır:

– Berlində olarkən qəflətən düşmənin atəşinə məruz qaldıq. Hər tərəf tüstü-dumana bürünmüşdü. Atəş ara vermirdi. Belə bir çətin anda biz topla cavab atəşi açırdıq. Əmr olundu ki, əsgərlərimiz yeraltı keçidə daxil olub, düşmən

snayperlərindən qorunsunlar. Qəflətən almanlar haradansa həmin keçidə su buraxdılar. Bu hadisədə xeyli tələfat oldu. Biz isə cəsur topçulardan, qarakilsəli Əvəz, zəngibasarlı Əsgər, Zod kəndindən Fəxrəli, Basarkeçərin Zərkənd kəndindən Əmrah, qaraqoyunlu Şəmistan, Göyçənin Məzrə kəndindən Vəli və İnəkdağı kəndindən Xəlillə almanların atəş nöqtəsini susdurduq və 7 nəfər alman zabitini tərksilah edib, komandanlığa təhvil verdik. Tale elə gətirdi ki, 2 may 1945-ci ildə 416-cı Taqanroq diviziyasının tərkibində döyüşü davam etdirərkən qolumdan və ayağımdan ağır yaralandım. Gözlərimi açanda özümü hərbi hospitalda gördüm. General-leytenant Taleykin mənim çarpayıma yaxınlaşdı. Səhhətimlə maraqlandı. Tibb bacısına lazımi göstərişlərini verdi. Döyüş əməliyyatında göstərdiyim şücaətə görə məni medalla mükafatlandırdı.

Ağababa İsgəndərov Almaniyadan ayrılandan sonra düz 25 günə Göyçə mahalına, doğma kəndləri Daşkəndə çatıb. Uzun illər qoyunçuluq fermasında çobançılıq edib, əkinçilik sahəsində çalışıb. Qəhrəman döyüşçü 10 uşaq atasıdır. Dörd oğul və 6 qız böyüdüb ərsəyə çatdırıb. Hazırda 24 nəvəsi və 14 nəticəsi var. Boş vaxtlarında nəvə-nəticələrinə Göyçə ilə bağlı kövrək xatirələrini danışır, yazdığı şeirləri həvəslə söyləyir.

Ağababa kişi İkinci Dünya müharibəsində[1] Azərbaycanın da şanlı qələbəsindən qürur hissi keçirir. 24 dekabr 2022-ci ildə Azərbaycan Prezidenti İlham Əliyevin bir qrup Qərbi azərbaycanlılarla görüşünü razılıqla qarşılayır. Əminliklə bildirir ki, Qərbi azərbaycanlıların ata-aba torpaqlarına qayıdacaqları gün heç də uzaqda deyil. O, istəyir

[1] Qeyd: Çox güman ki, İkinci Qarabağ müharibəsi nəzərdə tutulur.

ki, yaşının bu çağında Göyçəyə dönsün, Göyçə gölünün nəğməli sahillərini qucaqlasın.

Ağababa İsgəndərov müharibədəki xidmətlərinə görə, marşal G.Jukov, Rusiya Federasiyasının Prezidenti V.Putin tərəfindən tərifnamələrə layiq görülmüş, bir sıra medallarla təltif olunmuş, mükafatlara layiq görülmüşdür.

Arzu edərdim ki, 100 yaşlı veteran Ağababa İsgən-dərovla növbəti görüşümüz Göyçədə, Aşıq Alı, Aşıq Ələs-gər yurdunda olsun...

Qədir Aslan,
“Respublika” qəzeti,
09 may 2023, № 95 (7565)

"İKİAYLIQ OĞLUM ALMAN QIZINDA QALDI"

1939-cu il sentyabrın 1-i Almaniyanın Polşaya hücumu ilə İkinci Dünya müharibəsi başlayıb. Sonradan çox geniş miqyas alaraq onlarla dövləti əhatə edib. Döyüş meydanlarında, əsirlikdə, ölüm düşərgələrində 27 milyon hərbçinin həyatı sona yetib, eyni zamanda, 25 milyona yaxın dinc əhali həlak olub.

Müharibə 1945-ci ildə anti-Hitler koalisiyasının qələbəsi ilə başa çatdı və beləliklə də, dünya siyasi xəritəsi dəyişikliyə məruz qaldı. Müharibədə iştirak edənlərin 700 000 nəfəri Azərbaycan vətəndaşı olub. Hazırda bu savaşda iştirak edənlərdən 15 nəfəri sağdır.

Sağ qalan müharibə iştirakçısı, veteranlardan biri də Ağababa İsgəndərovdur.

Oxu.Az 100 yaşına qədəm qoymuş Ağababa İsgəndərovla həmsöhbət olub.

Ağababa İsgəndərov qeyd edib ki, müharibənin şiddətindən dünya sanki alışıb-yanırdı:

"Mən Göyçə mahalının Basarkeçər rayonunun Daşkəndində 1926-cı ildə anadan olmuşam. Mənimlə eyni ildə doğulan 18 nəfərlə birlikdə 1943-cü ildə müharibəyə çağırıldıq. 1921–22-ci ildə doğulanlar isə daha əvvəldən çağırılmışdılar. Müharibəyə çağırıldığım vaxt Leninqradda (indiki Sankt-Peterburq – red.) altı ay artilleriya kursunu oxudum. Topçu kimi hərbi texnikanın sirlərini öyrəndim. Ondan sonra isə 416-cı Taqanroq diviziyasında quluq etdim.

Ən qaynar döyüşlərdə topçu kimi iştirak etdim. Müharibə çox dəhşətli idi, göydən güllə yağırdı. Dünya sanki alışıb-yanırdı. Bir müddətdən sonra məni Xarkova, Kiyevə, Minskə, Estoniyaya və Polşaya yolladılar. 1945-ci il mayın

2-də Berlində döyüşdə yaralandım. Reyxstaqa çatmağımıza artıq çox az qalmışdı. Məni 134 nömrəli hospitala yerləşdirdilər. Bir il altı ay hospitalda yatdım. Ağır yaralı idim”.

Qocaman veteran müharibədə yaralandığı zaman yaşadıqlarını şeir parçası ilə ifadə edib:

“Topu vurdum durbin üstə,
Nişan aldım gözüm üstə,
Çox süründüm üzüm üstə,
Üç yerimdən yaralandım,
Axırda al qana batdım.
Ağababayam, budur sözüm,
Bu acıya necə dözüm?
Qan ağlayır iki gözüm,
Berlində al qana batdım”.

Ağababa İsgəndərov hospitalda ona qulluq edən bir alman qızına aşiq olduğunu deyib:

“Bir alman qızını sevib evləndim. Ondan Rauf adında bir oğlum dünyaya gəlmişdi. Ancaq 1947-ci ildə mən sağalandan sonra alman qızını SSRİ-yə buraxmadılar. Qatardan məcbur düşürdülər. İkiaylıq oğlum da alman qızında qaldı. Mən çox istədim ki, Almaniyada qalım, amma qoymadılar”.

O hətta çox sevdiyi, uzaq düşdüyü alman qızına şeir də həsr edib:

“Çox ağrıyır bədənimin yarası,
Alman qızı, ciyərimin parası.
Bizi ayıracaqlar, yoxdur çarəsi,
İnan sözlərimə, ay alman qızı.

İynə vurdun, yaralarımı bağladın,
Mən ağladım, sən də mənimlə ağladın,
Bağrım başın çalın-çarpaz dağladın,
Mən Qafqaz balası, sən alman qızı,
Elədin bağrımı qan, alman qızı.
İcazə vermirlər səni aparam,
Nə də qoymurlar ki, mən burda qalam.
Yanında qaldı körpəcə balam.
Eylədin bağrımı qan, alman qızı.
Ağababayam, qurban olum Allaha,
Sən də inanırsan o bir Allaha,
Müsəlmanam, qeyrətim var qanımda,
Bu körpə balam da qalır yanında.
Uşağa yaxşı bax, ay alman qızı.

Veteran Azərbaycan xalqına minnətdarlığını bildirməyi unutmayıb:

"Azərbaycan xalqına minnətdaram. 100 yaşıma qədər gəlib məni yoxlayıblar. Hamıya xoşbəxtlik arzulayıram. Allahdan diləyirəm ki, heç zaman müharibə olmasın, Azərbaycan xalqı həmişə sülh, barışıq, qələbə içərisində yaşasın".

O, 100 yaşa çatmağın sirrini də bölüşüb:

"Qurban olum Allaha, məni bu yaşa qədər saxlayıb. Bu, çox böyük xoşbəxtlikdir. İndiyə qədər nə siqaret çəkmişəm, nə də spirtli içki qəbul etmişəm. Sağlam doğulmuşam, sağlam da yaşayıram".

Aygün Mirakif,
09 may, 2025
https://oxu.az/cemiyyet/bir-esri-geride-qoyan-agababa-isgenderov-ikiayliq-oglum-alman-qizinda-qaldi-05091240

“ALMANİYADA OĞLUM QALDI, ARVADIM QALDI”

1941-ci ildə Azərbaycanın əhalisi 3,3 milyon idi. 600 min nəfər cəbhəyə göndərilmişdi. Onların yarısı müharibədə həlak olmuşdu. Yəni, 300 min azərbaycanlı...

Getdilər, getdilər Berlinə sarı,
getdilər, getdilər ölümə sarı.
Güllələr demədi: geri qayıdın.
Lülələr demədi: geri qayıdın,
qəlpələr demədi: geri qayıdın,
hələ uşaqsınız, nə yaşınız var…

Alman faşizmi üzərində şanlı qələbədən 80 il keçir... Cəbhədən 300 min adam sağ qayıtmışdı. Qayıdanların indi cəmi 21-i sağdır.

Berlinə sarı gedib, ölümün qənşərindən qayıdan o uşaqlardan biri də Ağababa İsgəndərov idi. Onunla “Sahil” bağında söhbətləşirik. Gələn il 100 yaşı olacaq, dillə demək asandır, 100 yaşı. Ancaq yaddaşı elə diridir ki... Komandirinin atasının adını da xatırlayır, Berlin xəstəxanasında onu müalicə edən həkimin soyadını da... Hətta Berlində yatdığı qospitalın yerləşdiyi küçənin adını da unutmayıb.

“Mən, Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşam. 1926-cı ildə... Məndən böyüklər cəbhəyə göndərildi. 1923-cü ildə anadan olanlar, 1924-də, 1925-də... Dörd qardaşım cəbhəyə getmişdi. Dilqəm, Şuxu, Heydər, Müzəffər... Hamısı müharibədən yaralı qayıtdı, Şuxu isə cəbhədən qayıdan kimi dünyadan köçdü. Ailənin sonbeşiyi mən idim. Axırda növbə bizə çatdı, 1926-cı ildə doğulanlara. Kəndi-

mizdə başıpapaqlı qalmamışdı. Vəziyyət elə ağır idi ki, qadınlar yer şumlayır, taxıl əkirdilər. Kəndimizdə elə bir ailə tapmazdın ki, cəbhəyə əsgər göndərməsin".

1942-ci ildə Zaqafqaziya Hərbi Dairəsinin komandanlığının əmri ilə Ucarda 416-cı diviziya yaradıldı. Şimali Qafqazda döyüş yoluna başlayan diviziya, Ukraynada, Belorusiyada, Moldovada, Polşada parlaq qələbələr qazanaraq Almaniyaya daxil olmuş, Berlindəki qələbə paradında iştirak etmişdi. Diviziyanın 308 topu vardı, toplarının birinin arxasında 18 yaşlı basarkeçərli traktorçu Ağababa dayanırdı. Diviziyanın şəxsi heyətinin 92 faizi azərbaycanlı idi.

"Məni Qoriya göndərdilər. Traktor kursuna getdiyimə görə məni artilleriya bölməsinə verdilər. Üç aylıq kursdan sonra cəbhəyə göndərdilər. 1944-cü ilin əvvəllərindən... 416-cı Taqanroq diviziyasının əsgəri olmuşam. Top atırdım, atıcı idim... Bir dəfə Polşada ağır döyüşə girdik. Taxta körpü vardı, oranı keçirdi əsgərlər. Qəfildən almanlar hücum etdi. Güllələr hər yandan üstümüzə tökülürdü, bir tərəfdən də aramsız top atəşləri... Körpü mərmilərə davam gətirə bilməyib dağıldı, əsgərlər çaya düşdü, nə qədəri orda öldü. Ancaq mən və cəbhə yoldaşım olan topçular almanların cavabını layiqincə verdik. Atəş nöqtələrini susdurduq. Almanlar geri çəkildi. Buna görə mükafat da aldıq. Qəzetdə haqqımızda məqalə getdi".

"Dolanışıq çox çətin idi. Ərzaqımız tükənirdi. Yeməyə heç nə tapa bilmirdik. Az qalırdıq acından torpaq gəmirək. Çiy qarğıdalı yeyirdik. Kazaklar vardı, onlar kartof qabığı yeyirdi. Aclıq idi... Ancaq buna baxmayaraq qələbə əzmimiz sarsılmırdı, azalmırdı".

416-cı diviziya 1943-cü ilin avqustunda on üç günlük döyüşlərdən sonra Azov dənizinin (Bu dəniz Kerç boğazı

ilə Qara dənizə birləşir) sahilində yerləşən Taqanroq şəhərinin azad edilməsində xüsusi rəşadət və qəhrəmanlıq göstərdiyi üçün "416-cı Taqanroq diviziyası" adlandırılır. Müharibənin gedişatında bu diviziya Ukraynanın azad edilməsində mühüm xidmət göstərir, Visla-Berlin xətti ilə irəliləyir və Berlinə daxil olur. Ucardan başlanan yol Berlində başa çatır.

Ancaq Almaniya asanlıqla təslim olmurdu. Hitler 1945-ci ilin 30 aprelində intihar etdi. 1 mayda bu xəbər elan edildi. Ancaq alman ordusu Berlini ev-ev, küçə-küçə qoruyurdu. Bu döyüşlərdə Sovet ordusu 81 mindən artıq əsgər və zabitini itirmiş, 200 mindən çoxu isə yaralanmışdı. Yaralananlardan biri də Ağababa İsgəndərov idi.

"Berlində düşmən bizə göz açmağa imkan vermirdi. Ümumiyyətlə, Berlin döyüşləri müharibənin ən amansız döyüşləri idi. Tüstüdən, dumandan göz-gözü görmürdü. Göydən ət parçaları yağırdı. Bizə snayperlərlə atəş açırdılar. Əmr verildi ki, yeraltı keçidə daxil olaq. Ancaq faşistlər də elə bil, bunu gözləyirdi. Keçidə su buraxdılar. Nə qədər əsgər yoldaşımız orda həlak oldu. Ancaq biz də çox yaxşı döyüşürdük. 7 alman zabitini tərk-silah elədik. 2 mayda ağır yaralandım. Necə yaralanmağım yadıma da gəlmir. Gözümü açanda xəstəxanada idim. Qolumdan və ayağımdan yaralanmışdım".

Ağababa kişiyə kiçik bir hədiyyə də gətirmişəm. İkinci Dünya müharibəsindən bəhs edən bir fotoalbom-kitab. Hədiyyəni sevinclə qəbul edir, kitabı birlikdə vərəqləyirəm, Sovet ordusunun Berlinə girməsini əks etdirən fotonu göstərirəm.

– Bax, burda Berlinə girmisiz...

Ağababa kişi sanki əliylə şəkli oxşayır, ya da reflektiv bir hərəkət edir, mənə elə gəlir. Ancaq şəklə sevgiylə baxır, həsrətlə baxır və fərəhlə baxır. Mən də şəklə baxıram, onun gördüklərini görə bilməsəm də... Onun gözlərində qanlı bir tarix, qiymətli dostlar, keçmiş günlər canlanır.

Sonrakı səhifədə isə yanaşı oturan üç nasist generalın fotosu var. Ağababa kişi əlini şəkildən tez çəkir, elə bil şəkildən iyrənir.

– Bunlar da sizin düşmənlərinizdir, Hitlerin generalları...

– Hə, düşmənlərdi, düşmənlərdi...

Onunla bir yerdə kitabı vərəqləyirik. Ağababa kişi xəyala dalıb, mənim isə yadıma Əli Kərimin "Coğrafiya müəlliminin şəhadət barmağı haqqında ballada" şeiri düşür.

Hər azərbaycanlı bir az şairdir. Hətta döyüşçüləri belə... 14 yaşında dövlət quran Xətai də şeir yazırdı. Azərbaycan xalqının mifoloji qəhrəmanı Koroğlunun da bir əlində qılınc vardı, digər əlində saz... Əfsanəvi kəşfiyyatçı Mehdi Hüseynzadə də şeir yazırdı. Ağababa İsgəndərov da Berlinin Karlsruhe küçəsində yerləşən hərbi qospitalda qələmə sarılır və anasına məktubla bir şeir yazıb göndərir:

Berlində yazıram, uzaqdır yolum,
Tərpənmir sol qıçım, yazmır sağ qolum.
Həkimlər soruşur necədir halın?
Topla bu dərdimi, yaz ağla məni.

"Qospitalda yatırdım, tez-tez dostlarım gəlib mənə baş çəkirdi. Vəziyyətim çox ağır idi, ayağım da qolum da gipsdə idi. Bir yəhudi həkim var idi, mənə baxıb dedi ki, sənin ayağını kəsməliyik. Mən də etiraz elədim, qoymadım. Bu

vaxt daha bir həkim gəldi, bakılı idi, Şıxəliyev Tahir. O məni yoxladı, yəhudi həkimə də acıqlandı. Dedi, narahat olma, sənə yaxşı baxacağam, ayağın salamat qalacaq. Sağ olsun, o olmasa idi ayağım kəsiləcəkdi. Generalımız da məni yoluxdu, həkimlərə mənimlə bağlı tapşırıq verdi. Qələbə xəbərini də dostlarım mənə gətirdi. Çox sevindim, çox... Xəstəxanada il yarım qaldım".

İlyarım ağır döyüşlər keçirən, özünün də dediyi kimi havada yağış əvəzinə ət parçaları yağan Ağababa kişi qospitalda alman bir həkimə, Krestensə vurulur. Ondan bir uşağı da olur. Uşağı Krestensin atasının adı ilə adlandırırlar: İsgəndərov Rauf Ağababa oğlu. Ağababa ordudan tərxis olunur, SSRİ-yə gedən qatara minirlər. Ancaq Sovet patrulu Krestensə qatara minməsinə icazə vermir. Çünki qatar ancaq hərbçilər üçündür, mülki şəxslərə icazə yoxdur. Krestensi əşyaları ilə birgə vaqondan düşürürlər. Ağababa bu dəhşətli ayrılığı belə nəzmə çəkir... Sahil bağında küləkdən xışıldayan yarpaqları ilə şeirin bu qəmli harayı birləşib asimana və bəlkə də düz Almaniyaya pərvazlanır.

"İcazə vermirlər səni aparam,
Məni də qoymurlar burada qalam.
Yanında qalıbdır bir körpə balam,
Elədin bağrımı qan, alman qızı"...

Berlindən yola düşən Ağababa İsgəndərov düz 25 gün sonra ana yurdu Daşkəndə çatır. Heç şübhəsiz ki, bu 25 günlük səfərin hər saniyəsində onu Krestensin xəyalı müşayiət edirdi. Və heç şübhəsiz ki, onun ürəyindəki qəm əlində əsgər çamadanından ağır gələrdi.

Ancaq həyat davam edirdi. Bu dəfə göydən insan əti yox yağış, qar, dolu yağırdı. Ağababa qoyunçuluq fermasında çalışmağa başladı, ev-eşik, ailə-uşaq yiyəsi oldu. Dörd oğul, altı qız böyütdü.

Ta ki, 1988-ci ilə qədər... O zaman Ağababa kişi yüz minlərlə soydaşı kimi Ermənistandan deportasiya edildi. Fotoları, sənədləri, cəbhədən yazdığı məktubları belə götürməyə fürsəti olmayıb. Göyçə mahalı Ağababa kişinin yaralı yeridir. Bayaqdan hökmlə, zabitə ilə danışan Ağababa kişi söhbət Göyçəyə gələndə səsi titrəyir.

“Göyçə mənim qibləmdir, Məkkəmdir, Mədinəmdir. “Tərsə” dağlarında, “Sona bulağı”, “Ocaq bulağı”, “Sarıbulaq” tez-tez yuxuma girir. Nəvələrimə, nəticələrimə danışıram”...

O keçən əsrin ən ağır dəhşətlərini öz ruhunda yaşamış, dərisində hiss etmişdi. Ancaq yeni əsrin xoş müjdəsindən ona da pay düşəcəkdi. Ağababa kişi Şuşanın azad edilməsi xəbərini aldığı günü ömrünün ən xoşbəxt günlərindən biri hesab edir: “İki gün sevindiyimdən çörək yeyə bilmədim. Bayram elədim, şadlıq elədim, nə qədər sevindim. Allah orda vuruşan övladlarımızın canını sağ eləsin, dərd nədir, bəla nədir, görməsinlər. Şəhidlərimizə də Allah rəhmət eləsin ki, belə bir günü bizə göstərdilər. Sağ olsun, Ali Baş Komandan, o mənim üçün ən qüdrətli sərkərdədir, ən igid adamdır. Ona görə ki, o torpaqları ermənidən almağı bacardı. O gün sanki dünyanı mənə verdilər. Həmişə deyirdim ki, Sovet bayrağını aparıb Berlində asdım, Allah mənə ömür versin, Azərbaycanın bayrağını da Şuşada, Kəlbəcərdə, Xankəndidə asım. Küçəyə çıxdım, əlimdə bayraqlarımızla. Bütün xalq küçədə idi, hamı görüşürdü, sevinirdi, alqış eləyirdi”.

Bəli, Ağababa İsgəndərovun Şuşanın azad edilməsi elan edildikdən sonra paytaxtımızda kütləvi şadyanalıqda çəkilən bu fotosu ölkə mediasında, eləcə də sosial mediada özünə geniş yer tapmışdı. Ancaq təəssüf ki, o hələ işğaldan azad edilmiş Şuşada, Kəlbəcərdə, Laçında ola bilməyib.

Gələn il 100 yaşı tamam olacaq Ağababa kişi ilə sağollaşıram. Əlimi möhkəm-möhkəm sıxıb belə deyir: "Çox sağ ol məni yoluxduğun üçün. Çox sağ ol..." Ayağa qalxır, sanki nəyisə xatırlayırmış kimi uzaqlara baxır və belə deyir: "Müharibə çox pis şeydir. Allah heç bir xalqa müharibə göstərməsin. Analar balasız, gəlinlər ərsiz, qızlar qardaşsız qalmasın".

Bundan yaxşı sonluq yoxdur...

Qan Turalı
Teleqraf
8 may 2025
https://publika.az/news/nida_xeber/568414.html

"GÖYDƏN PARÇA-PARÇA İNSAN ƏTİ TÖKÜLÜRDÜ"

"Bombalar partlar, toplar guruldar, haydı əsgərlər, haydı irəli, marş irəli. Qafqaz Ordusu heç dönməz geri. Haydı əsgərlər, Şərqə keçəlim, Şərqin elini, azad edəlim".

Artıq müharibədən 70 il keçməsinə baxmayaraq, İkinci Dünya Müharibəsinin iştirakçısı olan Ağababa İsgəndərov müharibənin şüarını hələ də yadından çıxarmayıb. Həmin günləri sanki dünən yaşamış kimi xatırlayır. Deyir ki, ad gününün tarixini dəyişdirib, Berlində yaralandığı günə salıb.

– Mən Göyçə mahalının Basarkeçər rayonunun Dağ[1] kəndində 1926-cı ildə anadan olmuşam. Əsəgərlikdən öncə 7-ci sinifdə olarkən kombayn kursunda altı ay oxmuşam. 1944-cü ildə 18 yaşımda isə müharibəyə getmişəm. Leninqradda artilleriya məktəbində oxudum. Ondan sonra isə 416-cı Taqanroq diviziyasında quluq etmişəm. Bu diviziyanı Mircəfər Bağırov yaratmışdı. Bağırov Stalinə bildirmişdi ki, mənim xalqım rus dilini bilmir, ona görə də Stalinin icazəsilə Mircəfər Bağırov bu diviziyanı yaratdı. Ondan sonra bizə Azərbaycan dilində komanda verilirdi. Bakının nefti, yağı, benzini olmasaydı, bəlkə də sovet hökuməti qələbə çala bilməyəcəkdi.

Söhbət etdikcə kövrələn Ağababa İsgəndərov müharibənin dəhşətli günlərindən birini belə xatırlayır:

– Yadımdadır ki, Almaniyada metro kimi yeraltı tunel var idi. Sovet əsgərləri ora girib, döyüşü davam etdirirdilər. Həmin gün minlərlə sovet əsgəri məhv oldu. Allah o gün-

---

[1] Qeyd: Dağ yox, Daşkənd.

ləri göstərməsin, yerdən-göydən yağış kimi güllələr tökülürdü başımıza. Berlin şəhərinə çatmağa az qalmışdı. Həmyerlim, bizim kənddən olan bir oğlanın bağırsaqları güllədən çölə töküldü. Heç onun meyidini belə yerdən götürə bilmədik. Çoxuna heç güllə dəymədi, Dunay çayını keçərkən elə çayda boğuldular. Dunay çayı çox dərin və böyük idi. Çox adam üzməyi bilmədiyinə görə elə çaydaca batdı. Mən də gördüm boğuluram, yapışdım rus komandirinin ayağından. O da məni söydü ki, burax ayağımı, bədənimdən tut, dedim, hara buraxıram. Elə şey yoxdur, bataram.

“Yaşayan tarix” adlandırılan Ağababa baba qələbəyə bir həftə qalmış yaralanmağından da danışdı:

– May ayının 2-də mən ayağımdan yaralandım. Reyxstaqa çatmağımıza artıq çox az qalmışdı. Məni 134 nömrəli Hospitala yerləşdirdilər. Mənə Bakıdan olan bir baş həkim baxırdı. Bir il altı ay hospitalda yatdım. Ağır yaralı idim. Onu da deyim ki, sonradan xəstəxanada mənə qulluq edən bir alman qızı ilə ailə həyatı qurdum. Ancaq 1947-ci ildə mən sağalandan sonra alman qızını SSRİ-yə buraxmadılar. Onu qatardan məcbur düşürtdülər. Çox istəyirdim ki, Almaniyada qalım. Hətta alman arvaddan ayrılanda ona şeir də qoşdum:

– Çox ağrıyır bədənimin yarası,
Alman qızı ciyərimin parası.
Bizi ayıracaqlar, yoxdur çarəsi,
İnan sözlərimə, ay alman qızı.
Mən ağladım, sən də mənlə ağladın,
Bağrım başın çalın-çarpaz dağladın.
Mən Qafqaz balası, sən alman qızı.

İcazə versələr, qallam yanında
Müsəlmanam, qeyrətim var qanımda,
Körpə balam da qalır yanında.

Amma bura qayıdandan sonra 10 uşağım oldu, heç alman qız yadıma da düşmədi (gülür).

Ağababa İsgəndərov başqa xatirələrini isə belə danışır:

– Bizə 18 günlük ərzaq vermişdilər. Onları yeyib qurtarandan sonra az qalırdıq ki, torpaq yeyək. "Jmıx" yeyirdik. Qarğıdalını çiy-çiy yeyirdilər, kazaklar yerə tökülən kartof qabığını da yeyirdilər. Çox çətin, dəhşətli günlər idi. Ukraynadan keçəndə ukraynalı qadınlar bizə qatığı, südü pulsuz verirdilər. Çünki onların əzizləri də hərbidə idi. Bizə arvadlar corab, əlcək toxuyub göndərirdilər. Elə ev var idi ki, 4 oğul getdi, heç biri də qayıtmadı. Təkcə elə bizim kənddən 125 nəfər geri qayıtmadı. Eləsi oldu ki, sonradan Amerikada, eləsi oldu, Türkiyədə tapıldı. Yaşamağa ümidimiz yox idi, hər yer meyid ilə dolu idi. Başımı meyidlərin altında gizlədirdim ki, güllə aparmasın.

Berlin alınanda elə bil, qiyamət günü idi. Silahların tüstüsündən səmanı belə görmək olmurdu. Göydən parça-parça insan əti tökülürdü. 9 mayı isə təzədən doğulduğumuz gün kimi qeyd edirdik. Çünki qələbəyə qədər düşünürdük ki, bu gün-sabah ölərik. Alman əsgərləri də çox güclü idilər, şəhəri cəsarətlə qoruyurdular.

Biz şəhərə girəndə gördük ki, alman əsgərləri alman bir qadını ayağından asıblar. Onun yoldaşı SSRİ-yə işləyirmiş. Görk olsun deyə, arvadını belə cəzalandırıblar. Elə etmişdilər ki, qan başına yığılsın, ölsün. Onu açıb, buraxdıq.

Şəhər sakinlərinin, yəni almanların bizim millətə xüsusi simpatiyası var idi. Onların bir ermənilərdən, bir də yahudilərdən xoşları gəlmirdi. Deyirdilər, hansı millətdənsən? Deyirdik ki, "Muhammədi", yəni, müsəlmanam.

Əsgərlərin boynundan xüsusi dəmir medalyon asırdılar, onun içində bizim haqqımızda məlumat olurdu ki, öləndə bilinsin, kimin meyididir, evə xəbər versinlər. Məndən həmin məlumatı soruşanda kövrəlib, anama şeir yazdım:

Başına döndüyüm gül üzlü anam,
Hayıfdır gözlərin, az ağla məni.
Ürəyin kövrəlib, dolanda hərdən
Yaralı bayatı yaz, ağla məni.

Hər şey indiyə kimi mənim gözümün qabağındadır. İkinci Dünya müharibəsi ilə bağlı filmlərə baxanda elə bilirəm ki, həmin müharibənin içindəyəm.

Şahanə Rəhimli
AzVision.az
09 may 2015
https://azvision.az/news/60120/news.html

BÖYÜK VƏTƏN MÜHARİBƏSİ İŞTİRAKÇISI OLAN AĞABABA İSGƏNDƏROVUN 90 YAŞI TAMAM OLDU

Faşizm üzərində qələbənin 71 illiyi ərəfəsində Böyük Vətən Müharibəsi iştirakçısı – veteran Ağababa İsgəndərovun 90 yaşı tamam olmuşdur. Bu münasibətlə Nəsimi rayon İcra Hakimiyyətinin Başçısı Asif Əsgərov veteranın ailəsində qonaq olmuşdur. Asif Əsgərov veteranı doğum günü münasibəti ilə təbrik etmiş və xoş arzularını bildirmişdir.

Ağababa İsgəndərov qonaqlara müharibə zamanı döyüş yolundan maraqlı söhbətlər etmişdir. Veteran bildirmişdir ki, hal-hazırda ən böyük arzusu Azərbaycan Bayrağını Şuşada və Qarabağda ucaltmaqdır.

09 may 2016
http://nasimi-ih.gov.az/az/news/771.html

AĞABABA İSGƏNDƏROV
"BUMERANQ" SƏHƏR ŞOUSUNUN
"ƏVVALA SALAM" RUBRİKASINDA

106.3 FM-in efirində yayımlanan "Bumeranq" səhər şousunun "Əvvala salam" rubrikasında bu dəfə İkinci Dünya müharibəsinin iştirakçısı olan veteran Ağababa İsgəndərovun xatirələrindən söz açılıb.

Ağabala İsgəndərov doğum günü tarixini dəyişdirib, Berlində yaralandığı günə salıb. Metbuat.az Ağababa İsgəndərovun müharibəylə bağlı xatirələrini təqdim edir.

"Berlin şəhərinə çatmağa az qalmışdı. Çoxuna heç güllə dəymədi, Dunay çayını keçərkən elə çayda boğuldular. Dunay çayı çox dərin idi. Mən də gördüm boğuluram, yapışdım rus komandirinin ayağından. O da məni söydü ki, burax ayağımı, bədənimdən tut, dedim, hara buraxıram. Bataram. Bizə 18 günlük ərzaq vermişdilər. Onları yeyib qurtarandan sonra az qalırdıq ki, torpaq yeyək. "Jmıx" yeyirdik. Qarğıdalını çiy-çiy yeyirdilər, kazaklar yerə tökülən kartof qabığını da yeyirdilər. Çox çətin, dəhşətli günlər idi.

Bir məqamı qeyd edim ki, şəhər sakinlərinin, yəni almanların bizim millətə xüsusi simpatiyası var idi. Deyirdilər, hansı milətdənsən? Deyirdik ki, müsəlmanam. May ayının 2-də ayağımdan ağır yaralandım. Bir il altı ay hospitalda yatdım. Xəstəxanada mənə qulluq edən bir alman qızı ilə ailə həyatı qurdum. Ancaq 1947-ci ildə mən sağalandan sonra alman qızını SSRİ-yə buraxmadılar. Onu qatardan məcbur düşürtdülər. Ona görə Almaniyada qalmaq istəyirdim. Bura qayıdandan sonra 10 uşağım oldu, heç alman qız yadıma da düşmədi".

10 may 2017

https://metbuat.az/news/698362/agababa-isgenderov.html

İSGƏNDƏROV AĞABALA[1] QƏMBƏRƏLİ OĞLU

1926-cı ildə Ermənistan Basarkeçər rayonunun Başkənd[2] kəndində anadan olmuşdur. 1942-ci ildə rayonunda kombayn-traktorçu kursunu qurtarıb kolxozda traktorist işləmişəm. 1943-ci ildə 17 yaşımda Sovet Ordu sıralarına çağrılmışdır.

1944-ci ilin noyabrından müharibənin sonuna qədər döyüşlərdə iştirak etmiş, 1166 saylı artilleriya alayında topçu kimi Berlinin alınmasına qədər fəal iştirak etmişdir. 623 saylı hospitalda müalicə olunmuşam və 1945-ci ilin noyabrında I qrup müharibə əlili kimi ordudan tərxis edilmişdir. Qırmızı Ulduz ordeni və "Berlinin alınmasına görə" medalı ilə təltif olunmuşdur.

Orduda xidmətdən qayıdandan sonra Ermənistanda doğma kəndimizin kolxozunda 1988-ci ilə qədər müxtəlif vəzifələrdə çalışmışam. 1981-ci ildən pensiyaçıyam.

Məndən başqa 3 qardaşımda BVM iştirak etmişlər, onlardan 2-ci döyüşlərdə həlak olmuşlar.

Ermənilərin başladığı milli münaqişə zəminində mən azərbaycanlı kimi doğma ata-baba yudumuzdan qovuldum, 1988 ildə Bakıda məskunlaşmışdır.

II qrup BVM əlilidir.

Mənbə: *İsrafil İsmayılov, Əli Məhərrəmov. 1941-45-ci illər müharibəsinin veteranları böyük qələbənin varisləridir. Bakı, "Vətən nəşriyyatı", 2010, səh.116*

---

[1] Qeyd: Şəxsin adı Ağabala yox, Ağababadır.

[2] Qeyd: Kəndin adı Başkənd yox, Daşkənddir.

İKİNCİ DÜNYA MÜHARİBƏSİ ƏLİLİ PREZİDENTƏ MÜRACİƏT EDİB

İkinci Dünya Müharibəsi (1941–1945-ci illər) əlili Ağababa İsgəndərov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət edib.

Mia.az həmin müraciəti təqdim edir:

“Möhtərəm Prezidentimiz İlham Heydəroğlu,

Bu gün ölkəmizdə aparılan genişmiqyaslı islahatlar, korrupsiyaya qarşı mübarizə və dünyanı bürüyən koronavirus (COVİD 19) pandemiyası dönəmində həmin virusun ölkəmizdə geniş yayılmasının qarşısının alınması məqsədilə həyata keçirilən tədbirlər məni bu müraciəti etməyə sövq etdi. Eyni zamanda bildirirəm ki, bu müraciətdə deyilənlər tək mənim yox, həm də Nəsimi rayon Vətən Müharibəsi əlillərinin fikirləridir.

Səmimi olaraq bildirmək istəyirəm ki, bir əsrə yaxın yaşımın olmasına baxmayaraq, heç zaman istər sovetlər dönəmində, istərsə də müstəqillik əldə etdiyimiz illər ərzində bu qədər genişmiqyaslı islahatların şahidi olmamışam. Bütün bunlar bir daha məndə əminlik yaratdı ki, Siz Heydər Əliyev məktəbinin ən layiqli davançısı kimi Ümummilli liderin ideyalarını uğurla və qətiyyətlə həyata keçirirsiniz.

Xüsusi karantin rejimi dövründə 65 yaşdan yuxarı vətəndaşlara Sizin tapşırıq və tövsiyyələrinizlə bütün dövlət qurumları tərəfindən xüsusi diqqət və qayğı ilə yanaşılmış, bütün qaldırdığımız məsələlər operativ surətdə həll olunmuşdur.

Görülmüş təxirəsalınmaz tədbirlərin nəticəsidir ki, koronavirus pandmiyasının ölkəmizdə geniş yayılmasının qar-

şısı alınmış, sosial qayğıya ehtiyacı olan bütün ailələrə ərzaq bağlamaları və digər yardımlar edilmişdir. Bütün bu tədbirlərin həyata keçirilməsində müstəsna xidmətləri olan Mehriban xanım Əliyevanın zəhmətləri əvəzsizdir.

Belə bir təlatümlü dönəmdə ölkəmizdə aparılan islahatların uğurla davam etdirilməsi, korrupsiyaya qarşı mübarizə tədbirlərinin daha da gücləndirilməsi hər bir Azərbaycan vətəndaşının ürəyincədir. Bildirmək istəyirəm ki, hallalıq olan yerdə bərəkət də olur. Odur ki, rüşvətxorların cəzalandırılması və tutduqları vəzifədən uzaqlaşdırılması hər birimiz tərəfdən rəğbətlə qarşılanır.

Hörmətli İlham Heydəroğlu,

Bir daha Sizi əmin etmək istəyirəm ki, mən və mənim həmyaşıdlarım həmişə olduğu kimi, indi də Sizin siyasətinizi dəstəkləyir və sağlam düşüncəli bütün gənc nəsli Sizin ətrafınızda birləşməyə çağırırıq.

Dərin hörmət və ehtiramla,

1941–1945-ci illərdə İkinci Dünya Müharibəsi əlili Ağababa İsgəndərov”.

2020-05-09
https://aqreqator.az/az/siyaset/3579704

HÖRMƏTLİ AĞABABA MÜƏLLİM!

Hərb tariximizə Vətən müharibəsi kimi yazılan Savaş noyabrın 10-da Ordumuzun parlaq Qələbəsi ilə başa çatdı. Ordumuzun gücü-qüdrəti sayəsində sonda Tarixi Qələbənin bizim olacağına hər kəs inandı, güvəndi və bir yumruq kimi birləşərək əsl Ordu-Xalq birliyini nümayiş etdirdi. Bu gün isə 9 May – Qələbə günüdür. Faşizm üzərində parlaq qələbəmizdən 76 il ötür.

Əziz Veteranımız!

Bu münasibət ilə Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin kollektivi və şəxsən öz adımdan Sizi səmimi qəlbdən təbrik edir, Sizə sağlam həyat, uzun ömür, can sağlığı arzu edirəm!

Xalqımız Bəşər tarixinin ən dəhşətli müharibəsində istər ön, istərsə də arxa cəbhədə böyük fədakarlıqlar göstərib. Ölkəmiz də bu Tarixi Qələbəyə mühüm töhvələr verib. Azərbaycan Xalqının igid oğulları ilə yanaşı qızları da bu müharibədə iştirak edib və bu hər bir Azərbaycanlıya daim qürur və fərəh hissi yaşadır. Azərbaycan Respublikası Prezidenti Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında müstəqil Vətənimizin qüdrətlənməsi və dövlətçiliyimizin qorunması naminə Azərbaycan dövlətinə və Azərbaycan xalqına sülh, tərəqqi və firavan həyat arzulayıram! Bu unudulmaz gündə Sizi ürəkdən təbrik edir və şücayətinizə görə də Sizə dərin təşəkkürümü bildirirəm!

Qələbə bayramınız mübarək!

Hörmətlə,

Müdafia Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri: A.Z.Ağadadaşova

09 may 2021-ci il

COŞQUN AĞABABA

İsgəndərov Ağababa Qəmbərəli oğlu 1926-cı ildə Göyçə mahalının Daşkənd kəndində anadan olmuşdur.

1941-ci ildə Daşkənd kənd orta məktəbinin yeddinci sinifini bitirmişdir.

1944-cü ildə Böyük Vətən müharibəsinə getmiş, 1945-ci ildə Berlində yaralanmışdır. On dörd ay xəstəxanada müalicə olunduqdan sonra 1946-cı ildə Göyçə mahalının Daşkənd kəndinə qayıtmışdır.

Müharibə veteranıdır. Otuza qədər orden və medallarla təltif olunmuşdur. Coşqun Ağababa ilk şeirini Almaniyanın Berlin şəhərində müalicə olunarkən yazmışdır. Yaradıcılığında dini şeirlər, nohələr və mərsiyələr xüsusi yer tutur.

1953-cü ildə Göyçə mahalından azərbaycanlılar departasiya olunarkən Ağababa da öz ailəsi ilə birlikdə Şəmkirin “Dağ Tatarı” kəndinə köçmüşdür. Şəmkirdə 25 yaşlı qardaşı Yaqubu ildırım vurduqdan sonra burada yaşaya bilməmiş və yenidən doğma Daşkənd kəndinə qayıtmışdır.

1972-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində keçirilən Aşıq Ələsgərin 150 illik yubileyi mərasimində Coşqun Ağababanın yazdığı “Ələsgər” rədifli şeiri “Kommunizm yolu” qəzetində çap olunmuşdur.

2005-ci ildə “Çaşıoğlu” nəşriyyatında çap olunan “Şəmkir şairləri və aşıqları” kitabında Coşqun Ağababanın şeirləri dərc olunub (səh. 405–407).

Coşqun Ağababa hal-hazırda Bakı şəhərində yaşayır. Yaşı səksəni keçsə də hələ də vətən həsrətli şeirlər yazıb-yaradır.

BAHAR

Dərədən, təpədən sellər coşduran,
Gör nələr gətirir ellərə bahar.
Sevinir çəmənlər, boy atır güllər,
Yayır ətirini çöllərə bahar.

Al-yaşıl bürünür meşələr, çöllər,
Köç edir qışlaqdan yaylağa ellər.
Ətirli lalələr, bənövşə güllər,
Min nemət gətirir ellərə bahar.

Yarpıznan lilparın siftə boy atır,
Neçə cür bitki var, hamsı kök atır.
Ağ sürülər sənin sinəndə yatır,
Sellər coşub gedir göllərə bahar.

Süsənin, sünbülün, lalə, nərgizin,
Ətirli bənövşən, çəmənin düzün.
Çox sevinc gətirən o gülər üzün,
Tutur şirin-şirin dillərə bahar.

Doymaq olmaz ətir iyi qoxundan,
Turaca, kəkliyə nəğmə oxudan.
Oyadırsan bülbülləri yuxudan,
Nəğmələr gətirir ellərə bahar.

Heç gör ayrılarmı çiyələk şehdən,
Bənövşə ətirdən, qızıl gül mehdən,
Dəstə-dəstə, salxım-salxım çiçəkdən,
Min nemət yetirir ellərə bahar.

Yadıma düşəndə coşqun bulaqlar,
Alıram havannan gör necə vüqar.
Ağababa da səndə görür etibar,
Ətirlər yayırsan güllərə bahar.

ƏLƏSGƏR[1]

İşıq saldın hər ölkəyə, mahala,
Şöhrət oldun bizim elə Ələsgər.
Sədəfli sazını alanda ələ,
Döndün bir ümmana, selə Ələsgər.

Hər mahalda məclis qurub gəzibsən,
Mirvari sözləri bir-bir düzübsən.
Elmin dəryasında kamil üzübsən,
Uymadın fitnəyə, felə Ələsgər.

Təcnisin, divanin aldı dünyanı,
Bütün aləm yatır Ələsgər hanı.
Ağababayam budur sözümün canı,
Düşübsən dillərdən-dilə Ələsgər.

1972-ci il

---

[1] Qeyd: Bu şeir sonralar "Ozan dünyası" jurnalında da çap olunub (2013, №3, səh.62)

İÇİNDƏ

Ay ağalar gəlin sizə söyləyim,
Mən qalmışam yanar odun içində.
Fələk mənə yaman sitəm eylədi,
Pis qohumun, düşmən, yadın içində.

Bir cüt gül oğlumu aldı əlimdən,
Çal-çarpaz ox vurdu sinəm kölündən.
Nişanə kəsdilər gözəl telindən,
Alışıram aşkar odun içində.

Ağababa bağrının başı teylənir,
Gözlərinən abu leysan sellənir.
Sənin odun hər bir yanda söylənir,
Qəmgin oldum kef püsatın içində.

İSTƏRƏM

Qohumdan, qardaşdan aralı düşdüm,
Yaxşını, yamandan seçmək istərəm.
Şeytanın hökmilə mara dönüblər,
Sanki, qəfəsə də uçmaq istərəm.

Dərdi, möhnət tel ağartdı başımda,
Ölüm bir səfərdi durub qarşımda.
Çox ağladım mən cavanlıq yaşımda,
Əcəl şərbətini içmək istərəm.

Gözüm ağlar, kirpiklərim yaş olub,
Bəxtimin ürəyi müdam daş olub.
Köhlən at belində qızılquş olub,
Dağlar qucağına qaçmaq istərəm.

Ağababa olub fikirdənləlik,
Yaman yara vurdu, bu zalım fələk.
Təntiyir nəfəsim, darıxır ürək,
Bu fani dünyadan köçmək istərəm.

SATAŞDI

"Keyti"nin başından aşanda bəri,
Gözlərimə ağır ellər sataşdı.
"Dəli dağ" qoynunda əriyir qarı,
"Tərsə"dən tökülən sellər sataşdı.

Dağların qoynunda canlanır ellər,
Hər kəs öz yurduna köçür deyirlər.
Oxuyur bülbüllər nəğmə deyirlər,
Əsrlər, tarixlər, illər sataşdı.

"İstisu" qoynundan çıxan bulaqlar,
Verir ömrü boyu baş-başa dağlar.
Yaşayıb bu yerdə gəzən insanlar,
Xınalı kəkliklər güllər sataşdı.

Ağababayam dəftər, qələm əlimdə,
Dağların tərifi budur dilimdə.
"Gəlin qaya" həyalanır önümdə,
"Qaraxaç"dan "Ala göllər" sataşdı.

İTİBDİ

Unudulub ata babalar sözü,
Köhnə ağsaqqalın sözü itibdi.
Su tökülüb yanan ocağın üstə,
Ocağın yerində közü itibdi.

Gözəl anaların, mərd babaların,
O dövran sürənlər köç edib hanı.
İndi ac gədələr tutub dünyanı,
Süfrənin çörəyi, duzu itibdi.

Nərdivandı bu dünyanın hər üzü,
Qalmayıbdı ata, analar izi.
Ara qatanların kor olsun gözü,
Namus-qeyrət, ilqar-iman itibdi.

Ay Ağababa, qaşlarını çatma sən,
Şeirdən, qəzəldən çox yaz, yatma sən.
Ata, baba sözlərini atma sən,
Bu naləmiz əlosmanda itibdi.

DAĞLAR

Harda olsam müdam elə,
Gəzir səni gözüm, dağlar.
Açılsın gülün, nərgizin,
Coşsun şeirim, sözüm, dağlar.

Gül-çiçəyin dəstə-dəstə,
Şəfa tapar görən xəstə.
Əl ağacı sinəm üstə,
Oldu mənim sazım, dağlar.

Alaçığın qoşa-qoşa,
"Hacı Qurban" bir tamaşa.
Arzumuzu vuraq başa,
Tərifini yazım, dağlar.

Qar əriyir axır sellər,
Oxuyur şeyda bülbüllər.
Arzulayır səni ellər,
Budur sənə sözüm, dağlar.

Ağababayam, gəldi yazım,
Qalmayıb diləyim, arzum.
Danışaydı telli sazım,
Görəydin avazım, dağlar.

Araz Yaquboğlu.
Daşkənd aşıqları və şairləri.
Bakı: "Nurlan", 2008. səh.107–112

AĞABABA İSGƏNDƏROV

İsgəndərov Ağababa Qənbəralı oğlu 1926-cı ildə Göyçə mahalının Basarkeçər kəndində[1] anadan olub. Orta təhsillidir. Müharibə veteranıdır.

ŞƏMKİR

Azəri elini gəzdim, seyr etdim
Yoxdu heç bir yanda tayı Şəmkirin.
Hər yanında bağça-bağı əkilib
Bahardan çalınır toyu Şəmkirin.

Çənlibel, İrmaşlı, Bala Daşbulaq,
Qatarın dağında olasan qonaq.
Zəyəm bazarında çox olur yığnaq,
Yaxşı mülayimdir yayı Şəmkirin.

Ağababa telli sazı hərriyə,
Nə gözəl yaraşır söz Düyərriyə.
Qardaş, dost olasan Sabir kəndiylə,
Yaxşı mülayimdir yayı Şəmkirin.

[1] Qeyd: Basarkeçər kəndində yox, Basarkeçər rayonunun Daşkənd kəndində.

GƏDƏBƏYDƏ

Alçaqlı, ucalı dağların başı,
Çayların gur səsi Gədəbəydədir.
Hərdən xoşa gəlib silah sınayan,
Koroğlu nərəsi Gədəbəydədir.

Sular, sellər dərələrdən axanda,
Laləlidir çəmən, çölə bax onda.
İldırım gurlayb şimşək çaxanda,
Yolların gərbəndi Gədəbəydədir.

Ağababa dostları araya-seçə,
Qardaşdı, qohumdu Gədəbəy, Göyçə.
Şair mənbəyidir Gədəbəy, Göyçə,
Şair Miskin Vəli Gədəbəydədir.

GÖYÇƏ

Şirindi torpağın, şirindi havan,
Sənin kimi gözəl dağ olan Göyçə.
Dolansam dünyanı, gəzsəm hər yanı,
Sənin kimi suyu say olan Göyçə.

Çox əziz tutursan gələn qonağı,
Şairlər yurdunun coşan bulağı.
Ələsgər elinin gözəl oylağı,
Dillərdə söylənən, yad olan Göyçə.

Söhbətdə, zinətdə Nəcəfi tanı,
Şair Məmmədhüseyn elmin dərgahı.
Şirindi Əkbərin söhbəti – sanı,
Ustadlar məskəni ad olan Göyçə.

Qazax, Gəncə gəlib səndə yaylayır,
Şiş kabab əlində saqi paylayır.
Coşqun-coşqun bulaqların qaynayır,
Çiçəklər basında an olan Göyçə.

Ağ çadırın yaylaqlarda qurulur,
Ağababa şən görür, qəlbi durulur.
Sevgi kimi könüllərə bulunur,
Camaldan, qüdrətdən pay alan Göyçə.

ƏLƏSGƏR

Yüz min illik sən qabağı görübsən,
Bu dünyada hörmət aldın, Ələsgər.
Əyilmədin xana, bəyə, sultana,
Ömürlük dünyada qaldın, Ələsgər.

Hər yerdə toy etdin qıza, gəlinə,
Zinyət verdin bütün Göyçə elinə,
Əcəb düşdün hər ölkənin dilinə,
Doxsan il sazını çaldın, Ələsgər.

Ağababa vurğundu Göyçə elinə,
Ələsgər sazinın on bir telinə.
Göyçə ləpəsinə, Göyçə gölünə,
Dəryadan payını aldın, Ələsgər.

“Şəmkir şairləri və aşıqları”
Bakı, “Çaşıoğlu”, 2005. səh.405–407

TOFİQ

Əmioğlu İsmayıl oğlu Tofiqə tərif

Bir cavan oğlandı cavanlar xası,
Cavanlar içində sayılsın Tofiq.
Səxavətli, sədaqətli oğlandı,
Gün kimi aləmə yayılsın Tofiq.

Atası, anası onlar qanandı,
Qohuma, qardaşa onlar yanandı.
O tayfa içində onlar qanandı,
Atadan dərs alıb sayılsın Tofiq.


Arzum budu sən çatasan yüz yaşa,
Ayağın dəyməsin heç vaxtı daşa.
Təsibkeş qohumsan səni yüz yaşa,
Koroğlu, Babəkə tay olsun Tofiq.


Atan İsmayıldı, anan Fənara,
Onlar heç vaxtı düşməsinlər dara.
Səni tay edirəm bəyə, sərdara
Tay-tuşun içində bəy olsun Tofiq.

Adım Ağababa, Göyçə elliyəm,
Sizin evin ailəsinə bəlliyəm.
Tərif yazan əmin kimi yolluyam,
Həmişə bəy kimi sayılan Tofiq.


14 may 1999-cu il


NƏSİBLİLƏR



Oruc
Nəsib 1809-?
Mustafa 1844-?
Eynal (Eyvaz) 1844-?
İsgəndər 1855-?
Əsgər 1856-?
Əfruz
Nəsib 1869-?
Cəlil 1868-?
Şahpəri Hacı Zeynal qızı
Sehran
Reyhan
Abdulhüseyn
Qəmbərəli
Fatma
Əmirəli 1877-1967
Telli Məmmədalı qızı
Kəklik Molla Şaban qızı 1900-1974
Murad 1912-1941/45
Maral
Bulur 1927-2005
Vəzir 1929-?
Abid 1930-1984
Zabit 1932-1997
Xanımzər 1935-2021
Məhtəvan 1939



Oruc
Nəsib
1809-?
İsgəndər
1855-?
Anaxanım
Mursaqulu qızı
1937-2017
Əmirəli
1877-1967
Kəklik Molla
Şaban qızı
1900-1974
Röyzə
Hidayət qızı
1931-2008
Mamed
1961
Camal
1963
Tehran
1965
Kamal
1967
Sehran
1969
Ceyran
1971
Aydın
1973
Məhbubə
1975
Tahirə
1977
Abid
1930-1984
Zabit
1932-1997
Xanımzər
1935-2021
Məhtəvan
1939
Sənayə
1952
Minayə
1955-2024
Nuriddin
1956-2017
Viləddin
1959
Sevgili
1961
Əsədulla
1963-1967
Firudin
1967
Şahniyar
1969-2018
Suliddin
1971-2010


Oruc
Nəsib
1809-?
İsgəndər
1855-?
Məhxanım
İsmayıl qızı
Qəmbərəli
Nərgiz
Abbasəli qızı
1876-1963
Səkinə
Cəlil qızı
1926-2005
Dilqəm
1915-1999
Müzəffər
1920-2005
Məhxanım
1954
Şuxu
1916-1946/48
Ağababa
1926
Sofiya
1956
Heydər
Yaqub
1929-1954
Almaz
1959
Şamama
Allahverdi
1963
Qəzənfər
Knyaz
1966
İsrail
Mobil
1969
Abdulla
Dilbər
Əsli


Oruc
Nəsib
1809-?
İsgəndər
1855-?
Məhxanım
İsmayıl qızı
Qəmbərəli
Nərgiz
Abbasəli qızı
1876-1963
Dilqəm
1915-1999
Müzəffər
1920-2005
Hamayıl
Abbas qızı
1924-2013
Şuxu
1916-1946/48
Ağababa
1926
Heydər
Yaqub
1929-1954
Xalidə
1946
Əli
1950
Ofilə
1954
Cuna
Behbud qızı
1924-2019
Əkbər
1958
Lütviq
1941-2025
Əvəz
1961
Şəfiqə
1943-2024
Reyhan
1964
Hökümə
1966


Oruc
Nəsib
1809-?
İsgəndər
1855-?
Məhxanım
İsmayıl qızı
Qəmbərəli
Nərgiz
Abbasəli qızı
1876-1963
Gövhər
Qurban qızı
1933-2011
Dilqəm
1915-1999
Şuxu
1916-1946/48
Heydər
Müzəffər
1920-2005
Ağababa
1926
Yaqub
1929-1954
Səyyarə
1958
Xoşbəxt
1960
Xançoban
1962
Telman
1964
Nərgiz
1967
Osman
1969
Laləzər
1971
Abbasəli
1973
Sədaqət
1976
Səməngül
1979

KİTABIN İÇİNDƏKİLƏR

İsgəndərov Ağababa Qəmbərəli oğlu 3
100 yaşlı veteranın cəbhə xatirələri 5
"İkiaylıq oğlum alman qızında qaldı" 9
"Almaniyada oğlum qaldı, arvadım qaldı" 12
"Göydən parça-parça insan əti tökülürdü" 19
Böyük Vətən müharibəsi iştirakçısı
olan Ağababa İsgəndərovun 90 yaşı tamam oldu 23
Ağababa İsgəndərov "Bumeranq" səhər
şousunun "Əvvala salam" rubrikasında 24
İsgəndərov Ağababa Qəmbərəli oğlu 25
İkinci Dünya müharibəsi əlili prezidentə
müraciət edib 26
Hörmətli Ağababa müəllim! 28
Coşqun Ağababa 29
Ağababa İsgəndərov 37
Nəsiblilər 42

AĞABABA İSGƏNDƏROV – 100
Bakı, "İmza", 2026

Direktor: **Səbuhi Aslan**
Kompüter və dizayn: **Araz Yaquboğlu**
Texniki redaktor: **Vüsalə xanım**
Korrektor: **Zöhrab Alıyev**

Yığılmağa verilmişdir: **08.04.2026**
Çapa imzalanmışdır: **03.05.2026**
Fiziki çap vərəqi: **3**
Formatı: **60x84, 1/16**
Sifariş: **№45**
Tiraj: **100**

Kitab "İmza" nəşrlər evinin mətbəəsində çap olunmuşdur.
Bakı, Mətbuat prospekti 529-cu məhəllə
Tel.: (+99412) 538 18 87
(+99450) 263 16 16